# Azərbaycan Ordusu dünya hərb tarixinə adını qızıl hərflərlə yazdı



**Qələbə sevincini yaşamaq necə olurmuş, onu da gördük... Bir-birinin ardınca azad edilən kəndlərin, şəhər və qəsəbələrin gətirdiyi fərəh Şuşa zəfəri ilə ən pik nöqtəyə çatdı. Bunun ardınca, Ermənistan tərəfinin məğlubiyyətini etiraf etməsi bizi daha da ruhlandırdı, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri hadisələrin sonrakı gedişi üçün Bəyanat imzaladılar. Tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva bu münasibətlə fikirlərini bizimlə bölüşərkən dedi:**

– Azərbaycan və Rusiya prezidentlərinin, eəcə də, Ermənistanın Baş nazirinin birgə imzaladıqları Bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Bu faktdır. Əslində, Ermənistanın nə istədiyi hamıya məlum idi. Dağlıq Qarabağa müstəqillik – Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurmaq onun ali məqsədi idi. Ermənistan və şəxsən Paşinyan "Artsax" adlandırdıqları qondarma "respublika"nı yalnız keçmiş DQMV hüdudları içində deyil, işğal edilmiş bütün Azərbaycan torpaqlarına aid etmişdi. Paşinyanın Azərbaycana bir



kənd yox, heç bir metr ərazi qaytarmaq fikri yox idi. Bəs 45 gün davam edən müharibənin nəticəsi nə oldu?

Müharibə meydanında ağır məğlubiyyətə düçar olan Ermənistan ordusu cəbhədən uzaqlardakı mülki əhalimizə xain raket hücumları təşkil edərkən də, Azərbaycan Ordusu müharibədə öz qızıl ləyaqətini sonadək qorudu. Klassik erməni yalanlarının, erməni saxtakarlıq və etibarsızlıqlarının təkrarlanması müqabilində Azərbaycan Prezidenti Ermənistana, dünya erməniliyinə əsl diplomatiya dərsi keçdi. Sentyabrın 27-dən, Ermənistan – Azərbaycan müharibəsi başlayandan cənab İlham Əliyevin dünyanın 30-a yaxın aparıcı media orqanına verdiyi hər biri bir hadisə qədər dəyərli və tarixi müsahibələri ümumdünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi, şüurlara təsir etdi, fikirləri dəyişdirdi. Media orqanlarının mənsub olduğu ölkələrin xalqlarında və rəsmi dairələrdə həqiqəti görmək istəməyənlər belə onunla üzləşdilər. Fakt həqiqətdir, fakt gerçəklikdir, fakt gizlinlərin aşkara çıxmasıdır.

Haqqında bəhs olunan Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin imzaladıqları birgə Bəyanatda "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır" məzmunlu 5-ci bənd, Rusiya və Türkiyə sülhməramlılarının əraziyə gəlməsinindən bəhs edir. Bu, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə birgə aparılacaq. Vurğulamaq istəyirəm ki, artıq dövlət başçımızın dəfələrlə qeyd etdiyi kimi "qoşunların təmas xətti" anlayışı yoxdur. Atəşkəs hal-hazırda Ermənistan və Azərbaycan silahlı qüvvələrinin yerləşmə məntəqələri ilə müəyyən olunur.

Qeyd edək ki, Azərbaycanın müzəffər Ali Baş Komandanı İlham Əliyev həmişə bildirirdi ki, müharibənin həlli prosesində Türkiyə də iştirak etməlidir. Qardaş ölkənin atəşkəs rejiminə nəzarət etmək üçün yaradılacaq birgə monitorinq missiyasında fəal yeri olacaq. Azərbaycan ictimai fikri Türkiyə hərbçilərinin prosesdə iştirakını ölkə maraqlarının əleyhinə hər hansı addım atılması qarşısında ən güvənilən və etibarlı amil hesab edir.

Bizi daha çox sevindirən digər məqam isə proses çərçivəsində Naxçıvanın blokadadan azad edilməsi olacaq. Bəyanata görə, Ermənistan ərazisindən keçməklə, Naxçıvan və Azərbaycanın digər rayonları arasında etibarlı dəhliz yaradılacaq və bu da Naxçıvanla əlaqənin daha yüksək səviyyədə olacağına təminat verir.

Dövlət başçımızın xalqa müraciətlərində səsləndirdiyi "Mən nəyi necə və nə zaman etməyi bilirəm" formulu ötən müddətdə bir neçə dəfə özünü ən parlaq ifadəsi ilə göstərdi. Mən 10 noyabrda qəbul olunmuş Bəyanata da məhz həmin formulla baxıram və dövlət başçımıza güvənirəm. Azərbaycan bütövlükdə bölgədə yeni siyasi gerçəklik yaradır. Bütün dünya aydın şəkildə gördü ki, Azərbaycan dövləti, xalqı heç vaxt məğlubiyyətlə barışmır və gec-tez öz tarixi, hüquqi, mənəvi haqlarına yiyələnməyi bacarır.

Prezident İlham Əliyevin son 17 il ərzində yürütdüyü siyasət, həyata keçirdiyi strategiya torpaqlarımızın işğaldan azad olunmasının ən başlıca səbəblərindəndir. Güclü dövlət, güclü ordunun nəyə qadir olduğunu Ermənistan – Azərbaycan arasında gedən Böyük Vətən müharibəsində hamı gördü.

Biz böyük sevinc içərisindəyik. Həmişə tədbirlərdə səsləndirdiyimiz "Arzu edək ki, belə tədbirləri gələn il Qarabağda keçirək", -- ifadəsini işlətməyəcəyik. İstədiyimiz toplantını, istədiyimiz vaxt Qarabağın dilbər guşələrindən birində keçirməyə şansımız olacaq.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 20 noyabr.- S.5.